

# MÜHACİR



"İranlı Mühacirlər Cəmiyyəti" İctimai Birliyinin mətbu nəşri
№ 03 (97) 30 noyabr 2016-cı il

ایرانلی مهاجرلر جمعیتی، ایجتماعی بیرلیینین مطبو نشری

# Baş redaktordan

## "21 Azər"ə bərabər yalnız "21 Azər"dir

**71 il əvvəlin bu günlərində Milli Hökumətin nəzarətindəki ərazilərdə, baş şəhərimiz Təbrizdə həyat öz axarı ilə davam edirdi. Təbriz radiosu Azərbaycan dilində informasiyalarını yayır, verilişlərinə başlayarkən şair Etimadın, bəstəkar Cahangir Cahangirovun birgə bəstələdikləri Milli Hökumətimizin marşını səsləndirir, Milli Filarmoniyada, Milli Teatrda məşqlər gedir, yeni açılan Təbriz Dövlət Universitetində, şəhər və kənd məktəblərində, kitabxanalarda həyat öz məcrasına düşürdü. Səhiyyə şəbəkələrində insanlara pulsuz xidmət göstərilir, kəndlilər onlara məxsus torpaqlardan götürdükləri məhsullardan qış azuqəsi kimi istifadə edir, tikinti-abadlıq işləri vüsət alırdı. Fədailər və asayiş keşikçiləri cəmi 12 gündən sonra onları gözləyən fəlakətlərdən bixəbər xidməti borclarını yerinə yetirməkdə idilər. Heç kimin ağlına belə gəlmirdi ki, Amerika və İngiltərənin himayə və hərtərəfli kömək etdiyi xain Pəhləvi xanədanının əlləri tezliklə minləri qanına qəltan edəcək. On minlərlə insan İranın ilan mələyən guşələrinə sürgünə göndəriləcək. Təəssüflər olsun ki, cəmi 12 gün sonra bu dəhşətlər yaşandı. "21 Azər" Hərəkatı bir il ömür sürdü. Yarandığı gündə- dekabrın 12-də tarixin şərəfli yaddaşına qovuşdu.**

Həmin gün Arazın digər tayına ailə üzvləri ilə birgə üç istiqamətdə pənah gətirən minlərlə inqilab iştirakçısının da gümanına gəlməzdi ki, bu, nəslərin mühacir taleyinin başlanğıcıdır. Çoxları Culfanı, Bulqar çayını keçərkən, Heyran dağlarını aşarkən bir ömürlük mühacirətə qovuşacaqlarını hiss edirlərmiş kimi çevrilib sonuncu dəfə doğma elləri seyr edirdilər. Bu mərd, dəyanətli insanların məqsədi heç də yeni yurdda məskunlaşmaq deyildi. Hamı tezliklə geri dönəcəyinə, 1 il əvvəl başlanılan işlərin davam etdiriləcəyinə, İran daxilində muxtariyyətə malik Azərbaycanda bəşəri hüquq və azadlıqların bərpa ediləcəyinə əmin idi.

İndi o vaxtdan 71 il ötür. Tarix öz diqtəsini edib. Kəskin darağını inqilab iştirakçılarının sıralarına çəkib. "21 Azər" iştirakçılarının sağ qalanları barmaqla sayılan qədərdir. Ağsaqqalı da var, ağbirçəyi də. Fəqət igid, dəyanətli ata- babalarımız dünyasını dəyişərkən belə gözlərində Təbriz həsrəti, dillərində "21 Azər" olub. Bu sədaqətin sirlərini elə "21 Azər"in, onun təşkilatçısı və ilhamvericisi Azərbaycan Demokrat Firqəsinin qayəsində, mahiyyətində, İran tarixinin 20-ci əsrin əvvəlindən indiyədək baş verən proseslərində axtarmaq gərəkdir.

Ötən əsrdə İranda "21 Azər"ədək də xalq hərəkatları və in-



Azərbaycan Hilli Mökumətinin tərkibi: Baş nazir-S.C.Pişəvəri, Daxili İşlər naziri-S.Cavid, Xalq Qoşunları naziri-Cəfər Kavyan, Fəlahət (kənd təsərrüfatı) naziri-Məhtaş, Maarif naziri-M.Biriya, Səhiyyə naziri-Ourəngi (Övrəngi), Maliyyə naziri-Q.İlhami, Ədliyə naziri-Yusif Əzimi, Yol, poçt, teleqraf və telefon naziri-Mirzə Rəbi Kəbiri, Ticarət və iqtisadiyyat naziri-Rza Rəsuli, İş və əmək nazi təyin olunana kimi o işlərə baş nazir S.C.Pişəvəri özü nəzarət etmişdir, Ali Məhkəmənin sədri-Zeynalabdin Qiyami, Baş prokuror-Firidun İbrahimi

qilablar baş verib. Lakin o, sözün əsl mənasında fundamental, bənzərsiz bir siyasi hadisədir. İstər Səttərxan (1905-1911-ci illərin İran inqilabı), istər Şeyx Məhəmməd Xiyabani (1918-1920-ci illər) hərəkatları, istərsə də "22 Bəhmən" inqilabı mahiyyətinə və xalqa keyfiyyətcə bəxş etdiklərinin miqyasına görə onunla müqayisəyə gəlməzdir.

İçtimai qayəsinə görə bu hərəkatın miqyası daha böyükdür. Belə ki, Tənbəki üsyanından başlayaraq "22 Bəhmən"ə qədər baş verən inqilablar və xalq hərəkatları tamamilə siyasi xarakter daşıyıb, ancaq siyasi hakimiyyətlərin dəyişməsi ilə başa çatıb. Azərbaycan Demokrat Firqəsinin rəhbərlik etdiyi "21 Azər" Hərakatı və onun yaratdığı Milli Hökumət təkcə siyasi dəyişikliklər ilə deyil, Azərbaycanın bütün içtimai, iqtisadi və mədəni sahələrində apardığı köklü islahatları, dəyişiklikləri ilə yadda qalıb. Cəmi 1 il hakimiyyətdə olan ADF-nin, Milli Hökumətin gördüyü işlər İran tarixində reallaşdırılanların 100 ilinə bərabər sayılır. Belə desək, "21 Azər"in alternativi yalnız "21 Azər" ola bilər.

Dediklərimiz 1324-cü ilin 12 Şəhriverində (3 sentyabr 1945-ci il) ADF-nin yaradıcıları tərəfindən imzalanan Bəyənnamənin dünyəviliyinə, bütün İran xalqlarının mənafeləri ilə səsləşməsinə əyani sübutdur. Bu, amerikalı hüquqşünas Uilyam Duqlasın 1950-ci ildə yerli camaatın Milli Hökumət və onun baş naziri Seyid Cəfər Pişəvərinin xidmətləri kimi xatırladıqlarını qələmə alarkən tutduğu siyahıda da təsdiqini tapıb. Ən mühüm islahatlar əsasən 3 kateqoriyaya bölünüb:

**1. Siyasi islahatlar;**
**2. Mədəni islahatlar;**
**3. Siyasi- iqtisadi islahatlar.**

Bəli, 71 ildir ki, Bakıda, Azərbaycanın əksər şəhər və bölgələrində "21 Azər"in ildönümləri qeyd olunur. Avropada və Amerikada da məclislər təşkil edilir. "Mühacirət" ifadəsi nə qədər üzüntülü olsa da biz sözün əsl mənasında bacı və qardaşlarımızın qayğısı, doğma münasibətləri sayəsində əldə etdiklərimizi minnətdarlıqla dilə gətirməyə borcluyuq. Bu, dünyanın heç bir ölkəsinin mühacirət fonunda müqayisə edə bilməyəcəyi mütərəqqi nümunə, əyani misaldır. 71 il əvvəl yalnız silahı ilə pənah gətirənlərin sıralarından 200 nəfər elmlər namizədi və elmlər doktorunun, minlərlə tanınmış mütəxəssisin yetişməsi, 10 min nəfərə yaxın soydaşımızın orden, medal, fəxri adlarla təltif olunmaları, minlərə yeni mənzillərin verilməsi, digər bəşəri qayğılar yalnız və yalnız mahiyyətində insanpərvərlik, humanizm hökm sürən bir xalqın əhatəsində mümkün ola bilərdi. Məhz buna görə bizlər də Azərbaycan Respublikasının uğurlarını öz nailiyyətlərimiz sayır, fəxr edir, yolunda hər cür fədakarlığa hazır olduğumuzu əməli nümunələrimizlə sübuta yetiririk. Yüzlərimizin döyüş meydanındakı şücaətlərinə görə layiq görüldükləri dövlət təltifləri də bundan xəbər verir.

Nəsillər dəyişsə də yolumuz, amalımız dəyişməz qalır. Bu üç bənddə ifadəsini tapdığı kimi:

***On illərdir yol gəlirəm,***
***Atam Azər, özüm Azər.***
***Mən əbədi bir məşələm,***
***Təşnəm Günəşə bərabər.***
***
***Yora bilməz yollar məni,***
***Qəlbim tükənməz atəşli.***
***Xalqım daim qeyd edəcək,***
***Müqəddəs "21 Azər"i.***
***
***Qoy kimsə də düşünməsin,***
***Yaşayırıq bir şam ömrü.***
***Zirvələrin bəzəyidir,***
***Bayrağı "21 Azər"in.***

***Rəhim Hüseynzadə,***
***Azərbaycanın əməkdar jurnalisti***



Azərbaycan Milli Hökumətinin iqamətgahı, Təbriz, 1946-cı il

*Əli Tudə*

## BAYRAQDAR

***Seyid Cəfər Pişəvəriyə***

Gecədir... Ay yanır bulud içində,
Ulduzlar sozarır sükut içində,
Təbrizin qoynunda dolanıram mən,
Küçədən-küçəyə yollanıram mən.
Şəhər yuxudadır... Yollara ancaq
Yenə işıq salır bir yorğun çıraq...
O kimdir otaqda hələ oyaqdır?
Yoxsa bu gecədə yanan mayakdır?
Hey yazır, hey pozur əlində qələm,
Dalğın gözlərində canlanır aləm...
Mən bir gün fikirsiz görmədim onu,
Vətəndir sözünün əvvəli, sonu...
Daim ağ günlərə dikilən baxış,
Qara qaşlarını qayğıyla çatmış...
Tanıdım! O, müdrik Pişəveridir,
Gənclikdən döyüşlər səfərbəridir.
Alnından süzülür narın incilər,
Bir kiçik otaqda uzun gecələr
Ah, nələr düşünür o həssas ürək,
Bildim! O ürəkdə bəslənən dilək
Bu xalqın ən ülvi məhəbbətidir,
Bu yurdun ən böyük səadətidir.
O söhbət edəndə öz millətindən,
Salonlar titrəyir hərarətindən.
O coşur, çağlayır, durulmayır heç,
Dinləyənlər necə? Yorulmayır heç.
Oxucum! Sanma ki, o ixtiyardır,
Çox da ağ alnında qırışlar vardır.
Vətənin kədəri, xalqın fəryadı
Onun ürəyində qübar bağladı.
Nə zaman ayağı dəydi bu yurda,
Dövran öz donunu dəyişdi burda.
O inamla dolu etiqadıyla,
Qələmi, zəkası, istedadıyla
Önümüzdə getdi bayraqdar kimi,
Biz də arxasında havadar kimi
Döyüşdən-döyüşə yürüyüb getdik,
Arzunu qayğıya bürüyüb getdik.
Hələ çağırsa da səngərlər bizi,
Xoş üzlə gözləyir zəfərlər bizi...

***1946-cı il***